**UOT: 73/76**

**Elnarə İntiqam qızı Mazandarova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Müəllim**
**E-mail: mazandarova@inbox.ru**

# ƏMƏKDAR RƏSSAM RAİS RƏSULZADƏNİN PEDAQOJİ FƏALİYYƏTİ

**Xülasə:** Məqalədə Azərbaycanın Əməkdar rəssamı Rais Rəsulzadənin pedaqoji fəaliyyətindən bəhs edilir. Burada rəssamın həyat və yaradıcılığı xronoloji şəkildə aydın təqdim olunmuşdur. Rəssamın uzaq Qazaxıstanda sürgündə anadan olaraq hansı çətinliklərlə böyüməsi və vətənə dönməsi, vətəni Azərbaycanda sevdiyi sənəti yaşatması və bu sənəti gənc nəslə ötürmək istəyi kimi maraqlı məqamlara toxunulur. Əməkdar rəssam Rais Rəsulzadə yaradıcılığının formalaşması və inkişafı vətəni Azərbaycana olan sonsuz sevgisindən bəhrələnir. Rəssam yaradıcılığı boyunca əldə etdiyi bilikləri və təcrübəni dərs dediyi Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbələrinə sevgi ilə aşılayır. Bu məqalənin məqsədi Rais Rəsulzadənin pedaqoji fəaliyyəti dövrünün yaradıcılığını gənc nəslə ötürmək və müəyyən dərəcədə ör- nək olmaqdır. Müəllif "rəssamın həyatının erkən yaradıcılıq dönəmini", "rəssamın vətənə bağlılığını", "rəssamın pedaqoji fəaliyyəti" kimi anlayışları araşdırır.

**Açar sözlər:** rəssam, tablo, mənzərə, pedaqoq, yaradıcılıq, sənət əsəri, janr, Əməkdar rəssam

Görkəmli və istedadlı sənətkar, Azərbaycanın müasir incəsənətində yaradıcılığının özünəməxsusluğu ilə fərqlənən Əməkdar rəssam Rais Azər oğlu Rəsulzadə 1946-cı ildə Qazaxıstanda dünyaya göz açmışdır. Dövrün çətinlikləri ilə üzləşməyə məruz qalan rəssamın ailəsinin Qazaxıstanda məskunlaşması, onların məcburi şəkildə oraya sürgünə göndərilməsi səbəbindən idi. Rais Rəsulzadə Azərbaycanın şanlı tarixinin görkəmli simalarından biri olan Məhəmməd Əmin Rəsulzadənin nəvəsi, Rəsulzadə soyadının fəxrli daşıyıcılarındandır. Körpə yaşlarından taleyin sınaqları ilə üzləşən rəssam, 3 yaşında ikən anasını itirir və qardaşı ilə birlikdə onlara atası baxır. Raisin atası Azər rəssam idi, xoşbəxt günlərində, hələ Vətəndə, Bakıda olduğu çağlarda rəssamlıq məktəbində təhsil almışdı və sürgün illərində rəssamlığı həm də ailəni dolandırmaq üçün onunçün çörək ağacına çevrildi (doğrudur, Məhəmməd Əmin Rəsulzadənin də əl qabiliyyəti vardı, atası da mahir xətt ustasıymış. Fəqət Azərə və onun ardınca Raisə də rəssamlıq qabiliyyəti, zənnimcə, ana xəttindən keçmişdi. Məhəmməd Əminin həyat yoldaşı Ümbülbanu da, onun

bacısı Umgülsüm də xoşagəlim rəsmlər çəkir, göyçək tikmələr toxuyurdular. Elə Umgülsümün uşaqları Oqtayla Toğrula, həyatdan erkən getmiş Cığataya rəsmçəkmə istedadı həmin xətlə bəxş olunmuşdu) [3, s.5]. Orta məktəbə Qazaxıstanda getməyə başlayan Rais Rəsulzadə, artıq ibtidai sinifdən rəssamlıq bacarığını və gözəl şahmat oynadığını büruzə verməyə başlamışdı. Məktəbdə keçirilən müxtəlif tədbirlər üçün stendlər hazırlayır, rəsmlər çəkirdi. Nəinki şahmat, yüngül atletika üzrə çempionatlarda da yüksək nəticələr nümayiş etdirirdi. Rəssamın sənətə olan marağı, hələ məktəbin 9-cu sinfində oxuyarkən Moskvanın Krupskaya adına Ümumittifaq İncəsənət Universitetinə daxil olması ilə nəticələnir. Məktəblə yanaşı Universiteti qiyabi oxuyan rəssam, verilən tapşırıqları böyük səylə yerinə yetirir və Universitetdə dərs deyən məşhur müəllimləri Julkovskaya, Zakin və Loqansondan müsbət rəylər alırdı. Çalışqanlığı və bədii mütaliələri ilə məktəbdə tanınan rəssama, rəhbərlik həftənin müəyyən günlərində mühazirələr deyə bilmək üçün şərait yaratmışdı. Şagird olmasına baxmayaraq, çoxlu kitab oxuduğundan bilik səviyyəsinin buna imkan verməsi, digər şagirdlərin həmçinin bu biliklərdən yararlanacağı kimi şərtlər, məktəb rəhbərliyinin bu addımı atmasına səbəb olmuşdu. Orta məktəbi və Krupskaya adına Ümumittifaq İncəsənət Universitetini bitirdikdə Raisin artıq 50-60-dan çox tutarlı əsəri vardı. Artıq doğma yurdu Azərbaycana gəlmək üçün onu heç nə saxlamırdı. Bununla da Rais Rəsulzadə uzun illər bundan qabaq vətənindən didərgin düşərək Qazaxıstan çöllərində sürgün yaşamağa məcbur qalan ailəsinin həsrət dolu xəyallarını vətənə qayıdışı ilə gerçəyə çevirir.

Rais Azər oğlu Rəsulzadə 1965-ci ildə Azərbaycana gələrək Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə daxil olur. Doğma yurd-yuvasında qalmağa yeri olmayan rəssam, tələbəlik illərini yataqxanada yaşamaqla keçirir. Tanınmış rəssam Toğrul Sadıqzadə, o ərəfələrdə qohumu Raisin işləri ilə tanış olaraq bəyənmiş və öz şəxsi emalatxanasının açarlarından bir nüsxə ayıraraq, istədiyi vaxt işləmək və qalmaq üçün oradan istifadə edə biləcəyini də söyləmişdi. Tələbəlik vaxtı keçirilən fənlərdən əlavə, rəssam dünya ədəbiyyatı və fəlsəfəsi ilə də maraqlanır, oxuyub əldə etdiyi bilikləri isə axşamlar tələbə dostları ilə bölüşər, maraqlı bilik mübadilələri apardı. Dünya incəsənəti ilə də dərindən maraqlanan rəssam, daim rəssamlıq sənətinin gündəmindən də xəbərdar idi. Hətta diplom müdafiəsinə az qalmış, dostları ilə yığışaraq, Moskvada Fransa heykəltəraşı və rəssamı Anri Matisin yubileyinə həsr edilmiş sərgiyə belə getməyi bacarmışdılar. Ümumiyyət- lə 60-cı illər Azərbaycan incəsənətinin intibah dövrü hesab oluna bilər. Belə ki, o dövr rəssamlarının bir çoxunun yaradıcılığındakı sıçrayış bunun göstəricisidir. Toğ-rul Nərimanbəyov, Tahir Salahov, Səttar Bəhlulzadə kimi məşhur rəssamlar həmin illərin rəssamlıq sənətinin parlaq nümayəndələridir. Onlarla yanaşı, sənətlərindən

ilhamlanan yeni nəsil rəssamlar da intensiv şəkildə inkişaf etməyə başlamışdı. Hələ cavan rəssam Rais Rəsulzadə də, dövrün qabaqcıl rəssamlarından sənətin sirlərini öyrənməyə səy göstərirdi. Atası Azər Rəsulzadədən başlayaraq, Hafiz Məmmədov, Toğrul Sadıxzadə, Oqtay Sadıxzadə, Kamil Xanlarov kimi sənətkarları da Raisin müəllimləri kimi təqdim edə bilərik.

Rəssamlıq məktəbini bitirdikdən sonra 1969-cu ildə Rusiyanın Penza vilayətindəki Kuznevsk şəhərinə əsgərliyə yola düşür. Xidmət ərzində də öz bacarığı ilə bir çox işlərə imza atır. Hərbi hissə üçün və həmçinin şəhərin özündə müxtəlif mozaika, portret və rəsmlər çəkir. Bu bacarığını dəyərləndirən komandir onu özü ilə Saratov şəhərinə aparır və Rais burada hərbi hissənin hesabına tikilən uşaq bağçasının layihəsini verir. Daha sonra 12 hərbi hissənin iştirak etdiyi "Hərbi hissənin ən yaxşı tərtibi" adlı müsabiqədə yüksək nəticə göstərərək, qulluq etdiyi hərbi hissəni yarışın qalibi etmişdi.

2 il müddətində hərbi xidmətdə olan rəssam, 1971-ci ildə xidməti başa vurur və birdəfəlik Azərbaycana qayıdaraq burada yaşayıb-yaratmağa başlayır. Gəldiyi ilk dövrlərdə yaşamaq üçün yer tapmaq o qədər də asan olmasa, bir müddət sonra Rəssamlar İttifaqı ona bir dəfəlik sifarişləri yerinə yetirmək üçün ayıra biləcəyi bir zirzəmini verir və rəssam böyük əziyyətlərlə o zirzəmidən həm emalatxana, həm də yaşayış yeri kimi istifadə etmək məcburiyyətində qalır. 1972-ci ildə Xalq rəssamı Nadir Əbdürrəhmanovun təklifi ilə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Bədii qrafika fakültəsinə daxil oldu və 1977-ci ildə həmin institutu bitirdi [2, s.6]. 1978-ci ildə isə orada saathesabı müəllim kimi dərs demək üçün dəvət alır və az sonra müəllim kimi fəaliyyətini davam etdirir.

Rais Rəsulzadə ADPU-nun "Rəsm, heykəltəraşlıq və rəngkarlıq" kafedrasında müəllimlikdən dosentliyə qədər çox uzun və layiqli yol keçmişdir. Məşhur rəssam-heykəltəraş İbrahim Zeynalov kafedranın yeni müdiri vəzifəsinə təyin olunduqdan sonra burada atmosfer və kollektiv də xeyli yaxşıya doğru dəyişir – Moskvanın və Leninqradın (Sankt-Peterburqun) mərkəzi universitetlərinin gənc məzunları burada dərs demək üçün dəvət olunur. Təhsilin məqsəd və vəzifələri dərslərdə öz əksini tapmağa başlayır. Bu incəsənət növünün dəyəri artır, gənclərin rəsmə münasibəti dəyişir və onların yaradıcılıq yüksəlişi ötən əsrin 70-80-ci illərinin sərgi fəaliyyətində özünü göstərir.

Fakültədə, xüsusən də kafedrada tədrisin uğuru, Ağəli İbrahimov, Fikrət Həşimov, Rəis Rəsulzadə, Qəyyur Yunusov, Nüsrət Hacıyev, Firdovsi Atayev, Hikmət Qəhrəmanov, Çingiz Fərzəliyev, Lətafət Məmmədovanın gəlişi ilə bağlıdır, Qəmzə Abdullayev, Ruslan Veysov, Rauf Səmədov, Məhəmməd Yüzbaşov kimi gənc və istedadlı rəssamların gəlişi ilə bağlıdır. Şagirdlərin rəsm və rəngkarlığa hazırlıq

səviyyəsi əvvəlki illərlə müqayisədə xeyli yüksəlir. Rais Rəsulzadənin rəhbərlik etdiyi qruplar digərləri arasında nəzərəçarpacaq dərəcədə fərqlənməyə başlayır. Buna səbəb rəssamın yüksək dərəcədə tələbkar olması idi. O, tələbələrindən nizam-intizamlı, məsuliyyətli, rəsmə qayğıkeş münasibəti tələb edirdi. Rəssamın qruplarında irəliləyiş sabit idi və onun şöhrəti ən yaxşı rəsm müəllimlərindən biri kimi artırdı. Tanınmış sənət ustaları övladlarının ali məktəblərə qəbulu üçün Rais Rəsulzadənin təcrübəsindən yararlanaraq, onun məşğələlərinə göndərirdilər. Onların arasında məşhur qrafika ustası Əziz Əzizov və başqaları da var idi. İşində sərbəst olan rəssam çox çalışır, hər gün yazır və rəsm çəkirdi. O, bəyəndiyi hər şeyi, əsasən qısamüddətli rəsm və eskizləri, modellərdən eskizlər təsvir edirdi. Rəsmin tədrisi nəticəsində işlənmiş rəsmlər və eskizlər təcrübənin toplanmasında mühüm rol oynamışdır.

İstedadlı rəssam gənc yaşlarından öz yaradıcılıq yoluna şübhə etmirdi və illər keçdikcə onun bacarığı daha da artaraq möhkəmlənirdi. Rəssam əsərlərində əsasən akvarel, sangina, sous, flomaster, pastel və digər materiallardan istifadə edirdi. Proporsiyalarda daim düzgünlüyü qoruyub saxlayaraq, modellərdə hərəkətlilik, forma və xarakterik cəhətləri önə çəkə bilmişdir. O, tələbələrdən də daim məhz bunu tələb edib. Təsvirin yaradılmasında xətləri, refleksləri, plan sərhədlərini və digər rəsm texnikalarını ustalıqla nümayiş etdirmişdir. Rəssamın bütün ömrünü həsr etdiyi sənətinə sədaqətinin bariz nümunəsi, onun çəkdiyi eskizlər, rəsmlər və kətan tablolar üzərindəki yaradıcılığıdır.

O, peşəkar rəssamlıq bilikləri ilə yanaşı, tələbələrdə kainat, fəlsəfə, musiqi, etika haqqında da dərin təsəvvürlər formalaşdırmağa çalışırdı.

Fakültənin yaradıcıları və ilk bədii qrafika müəllimləri Xalq rəssamı Nadir Əbdürrəhmanov, sənətşünaslıq üzrə fəlsəfə doktoru Paşa Hacıyev, Əməkdar rəssam Tələt Şıxəliyev, Əməkdar rəssam Hüseyn Hüseynov, Kərim Kərimov, kitab qrafikası mütəxəssisi Nüsrət Hacıyev olmuşlar.

Bu gün Rais Rəsulzadənin tələbələri sırasında çoxlu tanınmış rəssam-müəllimlər, tanınmış ictimai xadimlər var. Bunlardan Moskvada yaşayıb-yaratmış və Rusiya Rəssamlar Təşkilatının üzvü, rəssam Ucal Haqverdiyev, Türkiyədə yaşayan və İstanbulda fəaliyyət göstərən Abbas Kazımov, Türkiyənin yüksək dövlət mükafatlarına layiq görülmüş rəssam və ictimai xadim Rafiq Əzizov, Azərbaycan və Türkiyə Respublikasının ictimai xadimi və rəssamı Nəvai Metin, tanınmış rəssam və müəllim Naqiyə Rzayeva, Lənkəran şəhərinin baş rəssamı, istedadlı sənətkar Adil Əsədli, Qusar rəsm qalereyasının baş rəssamı və direktoru Rüstəmbek Nağıyev, Quba şəhərinin baş rəssamı Səməd Səmədov, Azərbaycanın Əməkdar rəssamı Fərahim Zeynalov, ADPU-nun rəssam müəllimi, dosent İdrak Novruzov, rəssam Vüqar Qazıyev, tanınmış rəssam, bir neçə fərdi sərgilərin müəllifi, rəssam Məlik

Məmmədxanov, rəssam-müəllimlər Təranə Qəmərlinskaya, İlqar Məmmədov, Elçin Mailov, İslam Gülmalıyev, Sevinc Hacıyeva, İlqar Əkbərov, Pəri Babayeva, Bənövşə Ağayeva, Sevda Dadaşova, Veronika Şəmsiyeva, məşhur rəssam Əli Şəmsiyev, bacarıqlı rəssam, ictimai xadim və hərbi ekspert Tərlan Eyvazov, qrafik rəssam Aleksandr Volovik, Lyudmila Məmmədova, Olqa Makarovskaya (Sankt-Peterburq), Abbas Pur (İspaniya) və bir çox başqalarıdır.

Hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetində pedaqoji fəaliyyətini davam etdirən Rais Rəsulzadə, gənc rəssam nəslinin yetişdirilməsində öz dəyərli sənətkar təcrübəsini paylaşmaqdadır. Ətrafında toplanan onlarla gənc, rəssamın geniş sənət yolunda əldə etdiyi bilikləri mənimsəməyə və ilkin yaradıcılıqlarında tətbiq etməyə çalışırlar. Rəssam sənət yolunda büdrəmədən irəliləməkdədir və yeni-yeni sənət əsrləri ilə tamaşaçısını daim sevindirir. Hal-hazırda Rais Rəsulzadənin 800-dən çox sənət əsəri vardır ki, onlardan bəziləri Azərbaycan və dünyanın müxtəlif ölkələrindəki muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılır.

Rəssam 1978-ci ildən keçmiş SSRİ və Azərbaycan rəssamları ittifaqının üzvüdür. İttifaqın ictimai həyatında intensiv iştirak edən rəssam, buranın rəhbərliyi ilə təşkil edilmiş bir çox yerli və xarici sərgilərdə iştirak etmişdir. Bu ölkələrdən Kuba, ABŞ, Türkiyə, Rusiya, Əfqanıstan, Polşanı misal göstərmək olar. Onun iş- lədiyi müxtəlif tutumlu tablolarda (“Şərq natürmortu”, 1980; “Metro inşaatçıları”, 1986; “Gizlində”, 1988; “Yorğun əsgər”, 1989) psixoloji yozumlar və ovqat ifadəsi (“Rəssam Qadir Süleymanovun portreti”, 1985, “Balıqçının portreti”, 1990) fərdi müəllif yaşantıları ilə qoşalaşdığından çox düşündürücüdürlər [1].

Bir çox janrlarda əsərləri olan rəssam daha çox mənzərə janrına üstünlük verir və yaradıcılığında əsasən Azərbaycan mənzərələrinə müraciət edir. Tanınmış mənzərə əsərlərindən “Yay rəngləri”, “Siyəzən”, “Göyçay çayı”, “Sükutun səsi”, “Xəzər”, “Gədəbəy. Slavyanka”, “ Mirzəbəyli. Qarasu”, “Gədəbəy. Slavyanka”, “Qəbələ. Laza”, “Şüvəlan. Yay”, “Oğuz”, “Lənkəran. Rəfiqələr”, “Çiçəklənmə”, “Qəbələ. Uludaş”, “Kəpəz”, “Oğuz”, “Göygöl. Dağlarda yol”, “Qəbələ. Ətir guşəsi”, “Çaykənddə peyzaj”, “Göyçay çayı”, “Ağrı” kimilərini misal göstərmək olar.

Rais Rəsulzadə müstəqillik illərində Azərbaycan təsviri sənəti sahəsində səmərəli fəaliyyətinə görə respublikanın Əməkdar rəssamı fəxri adına layiq görülmüşdür [4, s.12]. Rəssam 2009-cu ildə “Azərbaycan Siyasi Repressiya Qurbanları Assosiasiyası”nın rəhbəri vəzifəsinə təyin olunub.

**Ədəbiyyat siyahısı:**

1.https://525.az/news/15286-repressiya-olunmuslarin-yaradiciligi
2.Nəsiman Yaqublu. Rəsulzadə yadigarı. Rais Rəsulzadənin 70 yaşına. 525-ci qəzet, 2016, 25 oktyabr. (s.6).
3.Rafael Hüseynov. Adında və fırçasında işıq daşıyan. 525-ci qəzet 2017, 2 fevral. (s.5).
4.Ziyadxan Əliyev. Repressiya yellərindən keçən sənət yolu. Mədəniyyət 2014, 31 Yanvar (s.12).

**Эльнара Интигам кызы Мазандарова**

## ПЕДАГОГИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ЗАСЛУЖЕННОГО ХУДОЖНИКА РАИСА РАСУЛЗАДЕ

**Резюме:** В статье рассказывается о педагогической деятельности заслуженного художника Азербайджана Раиса Расулзаде. Здесь жизнь и творчество художника четко представлены в хронологическом порядке. Затрагиваются интересные моменты, такие как трудности художника в ссылке в далеком Казахстане, поддерживание любимого искусства в родном Азербайджане, желание передать это искусство новому поколению. Творчеству и развитию заслуженного художника Раиса Расулзаде способствует его бесконечная любовь к родному Азербайджану. Знания и опыт, приобретенные им на протяжении всей своей карьеры, художник с любовью передает студентам Азербайджанского государственного педагогического университета, где он преподает. Цель данной статьи – показать работу, проделанную Раисом Расулзаде за время его педагогической деятельности, и стать примером для современной молодежи. Автор исследует такие понятия, как «ранний творческий период жизни художника», «привязанность художника к Родине», «педагогическая деятельность художника».

**Ключевые слова:** художник, картина, пейзаж, педагог, творчество, произведение искусства, жанр, заслуженный художник

**Elnara Intigam gizi Mazandarova**

## PEDAGOGICAL ACTIVITY OF HONORED ARTIST RAIS RASULZADE

**Summary:** The article talks about the pedagogical activity of the Honored Artist of Azerbaijan Rais Rasulzade. Here, the artist's life and creativity are clearly presented chronologically. Interesting points are touched upon, such as the artist's

difficulties in growing up and returning to his homeland after being born in
exile in distant Kazakhstan, keeping alive the art he loved in his native Azerbaijan,and his desire to pass this art on to the younger generation. Honored artist Rais Rasulzadeh's creativity and development benefit is from his endless love for his homeland Azerbaijan. The artist lovingly imparts the knowledge and experience hehas acquired throughout his career to the students of Azerbaijan State PedagogicalUniversity, where he teaches. The purpose of this article is to show the work done by Rais Rasulzadeh during his pedagogical activities to the modern youth and tobe an example. The author explores such concepts as "the early creative period of the artist's life", "the artist's attachment to the motherland", "the artist's pedagogicalactivity".

**Key words:** artist, painting, landscape, educator, creativity, work of art, genre,honored artist

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23. 10. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**